**UOT 666.3:947.011:39:745**

# GƏNCƏBASARDA İLK DƏMİR DÖVRÜNDƏ DULUSÇULUQ SƏNƏTİNİN İNKİŞAFINA DAİR

**E.L.HƏSƏNOV**

***AMEA Gəncə Regional Elmi Mərkəz***

***el-hasanov@mail.ru***

*Elmi əsərdə təkzibedilməz dəlillər və faktlar əsasında Gəncəbasar ərazisində ilk dəmir dövrü mərhələsində dulusçuluğun inkişafı tarixinə yeni elmi yanaşmanın həqiqiliyi təsbit edilmişdir. İlk dəfə olaraq bu dövrə aid sənətkarlıq ənənələrinin mənşəyi (genezisi) probleminin öyrənilməsində saxsı məmulatların tarixi-etnoqrafik mənbə kimi əhəmiyyəti məsələsi tədqiq olunmuşdur.*

**Açar sözlər:** dulusçuluq sənəti, ilk dəmir dövrü, tarixi-etnoqrafik tədqiqat, mənşə (genezis) problemi, Gəncəbasarın qədim saxsı məmulatları.

Qədim Gəncə və onun ətraf ərazilərində qədim tarixə, həmçinin zəngin sənətkarlıq ənənələrinə malik olan dulusçuluq sənətinin inkişafında ilk dəmir dövrü mərhələsi xüsusi əhəmiyyətə malikdir. Belə ki, Gəncəbasarda eradan əvvəl XII-VIII/VII əsrlər ərzində çoxçeşidli saxsı məmulatlarının hazırlanması, bu dulusçuluq nümunələrinin xarici səthinin naxışlanması sahəsində xüsusi inkişaf müşahidə edilmişdir. Bu tərəqqi meyllərinin səbəbləri sırasında ümumi sosial və ictimai yüksəlişlə yanaşı, qeyd edilən sənətkarlıq sahəsində texniki və texnoloji yeniliklərin xüsusi ustalıqla tətbiq olunması vurğulanmalıdır.

Heç şübhəsiz, bəhs edilən yeniliklər dulusçu sənətkarların əsrlərə istinad edən və varislik sayəsində nəsildən-nəslə ötürülən sənət ənənələrinin tədricən daha da təkmilləşdirilməsi sayəsində saxsı nümunələrində əks etdirilmişdir. Eyni zamanda, qədim Gəncədə şəhər mədəniyyəti ünsürlərinin tərəqqisinin məntiqi nəticəsi olaraq gil qabların kəmiyyət göstəriciləri ilə bərabər, həm də keyfiyyət xüsusiyyətlərinin yüksəlişi özünü büruzə vermişdir.

Gəncə ilə yanaşı, bütöv Gəncəbasar bölgəsində yaşayış məntəqələrinin əhatə etdiyi sahəsinin genişlənməsi ilə eyni vaxtda burada yaşayan əhalinin – əcdadlarımızın say artımı və sənətkarlıq bacarıqlarının təkmilləşməsi artıq ayrı-ayrı sənət növləri ilə məşğul olan peşəkar ustalar arasında ixtisaslaşmanın güclənməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir. İlk dəmir döv-

ründə Gəncəbasar ərazisində dulusçuluq sənətinin ümumi inkişafı prosesində iki mühüm cəhət diqqəti cəlb edir:

1. Bir tərəfdən əvvəlki tarixi mərhələlərdə dulusçuluq sənəti sahəsində mövcud olmuş müxtəlif xüsusiyyətlər qorunub saxlanılmışdır. Doğrudur, Gəncəbasar bölgəsinin ayrı-ayrı ilk dəmir dövrü arxeoloji abidələrindən aşkar olunmuş çoxçeşidli saxsı məmulatlarının təfərrüatlı elmi tədqiqi göstərmişdir ki, bəhs olunan sənətkarlıq cəhətləri bir qədər fərqli, nisbətən təkmilləşdirilmiş formada tətbiq edilmişdir. Xüsusilə də gil qabların hazırlanması və üzərinin işlənilməsi prosesində öncəki tarixi dövrlər, o cümlədən tunc dövrünün ayrı-ayrı mərhələləri üçün səciyyəvi hesab olunan sənət elementləri müəyyən dərəcədə fərqlənən üslubla yerinə yetirilməsi baxımından diqqətəlayiqdir [1, 95].

Gəncə və bütövlükdə, Gəncəbasar bölgəsinin ilk dəmir dövrü mərhələsinə aid edilən saxsı nümunələrinin heyvan və quş təsvirləri (zoomorf) xarakterli elementləri bu cəhətdən xüsusi əhəmiyyətə malikdir. Tunc dövrünün hər üç mərhələsində (ilk, orta və son tunc dövrləri) müəyyən dərəcədə fərqli və oxşar xüsusiyyətləri ilə dulusçuluq məmulatlarında tətbiq olunmuş zoomorf səciyyəli təsvirlər ilk dəmir dövründə ağ inkrustasiyalı, «Kernos» tipli, həmçinin çoxqulplu gil qablar üzərində qeyd edilməsi ilə diqqəti cəlb edir [2, 26].

2. Digər tərəfdən isə bəhs olunan tarixi mərhələdə əvvəlki dövrlərdə mövcud olmamış və yaxud geniş surətdə istifadə edilməmiş dulusçuluq sənəti elementlərinin tətbiq olunduğu üzə çıxmışdır. İlk dəmir dövründə Gəncə və Gəncəbasar üçün səciyyəvi hesab edilən saxsı məmulatlarının hazırlanması prosesində tətbiq edilmiş yeniliklər gil qabların aşağıdakı mühüm xüsusiyyətlərində təzahür etmişdir:

- dulusçuluq məmulatlarının hazırlanma texnikası;
- saxsı qabların istehsalı texnologiyası;
- qabların forma və quruluşu [3, 117];
- gil məmulatlarının xarici səth hissəsinin işlənilməsi və naxışlanması;
- dulusçuluq nümunələrinin əlavə çıxıntıları və qulplarının hazırlanması [4, 132].

Qeyd edilən mühüm sənətkarlıq yeniliklərinin tətbiq olunmasının tarixi əhəmiyyəti yalnız dulusçuluq sənətinin ilk dəmir dövrü mərhələsində inkişafının elmi cəhətdən öyrənilməsinə şərait yaratması ilə məhdudlaşmır. Belə ki, bu tarixi mərhələdə saxsı nümunələrinin hazırlanması sahəsində istifadə edilmiş yeniliklər sənətkarlıq ənənələrinin mənşəyi (genezisi) probleminin araşdırılması sahəsində də tutarlı tarixi-etnoqrafik mənbə kimi dəyərlidir.

İlk növbədə qeyd etmək lazımdır ki, bu tarixi dövrə aid Gəncə və Gəncəbasarın səciyyəvi dulusçuluq məmulatlarının hazırlanma texnikasının təkmilləşdirilməsi sayəsində gil qabların hazırlanma texnologiyasında əhəmiyyətli dərəcədə keyfiyyətli və sənətkarlıq baxımından nəfis dəyişikliklər öz əksini tapmışdır. Bu prosesin digər mühüm zəmini dulusçu sənətkarların peşəkarlığının yüksəlməsi, eyni zamanda ümumi dünyagörüşü, mədəni səviyyəsi

və dini-mifoloji təsəvvürlərinin daha da inkişaf etməsi amilləridir. Məhz dulusçu ustaların tədrici sənətkarlıq ənənələrinin inkişafı, yerli şəraitlə bağlı olaraq əhalinin saxsı nümunələrinə olan tələbatının artması, insanların daha təkmil, bədii cəhətdən diqqətəlayiq, yüksək ifadəlilik cəhətləri ilə seçilən gil qablardan istifad etmək istəyi ilk dəmir dövründə Gəncəbasar üçün səciyyəvi hesab olunan unikal saxsı məmulatlarının istehsalına rəvac vermiş sənət ənənələrinin yerli xarakterli olduğunu əsaslandırmağa imkan verir.

Bəzi tədqiqatçıların ilk dəmir dövrü üçün spesifik olan dulusçuluq sənəti ənənələrinin mənşəyi (genezisi) probleminin izahında Gəncəbasarın yerli deyil, kənardan olan mədəni-sənətkarlıq dəyərlərinin təsiri sayəsində bu xüsusiyyətlərin formalaşması amilini önə çəkməsinin [5, 19] ciddi elmi əsası yoxdur.

İlk dəmir dövrü mərhələsində Gəncəbasarda hazırlanmış və məişətdə, eyni zamanda təsərrüfat fəaliyyətində istifadə olunmuş ağ inkrustasiyalı dulusçuluq nümunələrinin unikal xüsusiyyətlərinin mövcudluğunda Cənub-Qərbi Asiyadan intensiv sənətkarlıq ənənələrinin həlledici faktor kimi təsir etməsinə dair bir sıra əcnəbi tədqiqatçıların yanlış elmi yanaşmasının [6, 277-278] tutarlı dəlillərlə təkzibi vacibdir. Belə ki, hələ tunc dövrü mərhələsində Aralıq dənizinin cənub və cənub-şərq sahilinin bir sıra bölgələrində ağ cızma naxışlı yaxud ağ inkrustasiyalı saxsı məmulatlarının hazırlandığını əsas götürərək son tunc və ilk dəmir dövründə Gəncə və onun ətraf ərazilərində bu tip nəfis dulusçuluq nümunələrinin istehsalının güclənməsində yerli sənətkarlıq şəraiti və ənənələrinin təsirinin minimuma endirilməsinin heç bir əsası yoxdur [7, 185].

Əksinə, bu cür konsepsiyalarla çıxış etmiş tədqiqatçıların Gəncə kimi qədim tarixə və zəngin sənətkarlıq ənənələrinə malik mədəniyyət mərkəzinin Gəncəbasarda ilk dəmir dövrü mərhələsində dulusçuluq sənətinin keyfiyyətcə yeni və daha təkmil xüsusiyyətlərlə zənginləşməsində oynamış olduğu mühüm rolu etno-arxeoloji aspektdən araşdırmaq, müqayisəli elmi təhlil aparılması yolu ilə üzə çıxarmaq istəməmələri təəccüb doğurmalıdır. Odur ki, ilk dəmir dövründə yüksək sənətkarlıq cəhətləri ilə seçilən müxtəlif dulusçuluq məmulatlarının, o cümlədən də ağ inkrustasiyalı saxsı qabların hazırlanmasına şərait yaratmış sənətkarlıq ənənələrinin Gəncənin, bütövlükdə isə Gəncəbasarın yerli inkişafı ilə birbaşa bağlı olduğu şübhə doğurmur. Bununla yanaşı, minilliklər boyu əlverişli coğrafi-strateji mövqeyi ilə seçilmiş Gəncə şəhərinin, onun ətraf ərazilərinin dulusçuluq və digər çoxsaylı sənətkarlıq sahələrinin yeni xüsusiyyətlərlə zənginləşməsində yüksək dərəcədə inkişafı ilə seçilmiş bölgələrin mədəni təsirlərinin də müəyyən dərəcədə rol oynadığı tam inkar edilmir [8; 9, 125].

Bəhs olunan tarixi mərhələdə Gəncəbasar bölgəsində dulusçuluq sənətinin inkişafı ilə bağlı yerli saxsı məmulatlarının çoxçeşidli olması xüsusi əhəmiyyətə malikdir. İlk dəmir dövrü üçün səciyyəvi hesab olunan əsas dulusçuluq qablarını şərti olaraq bu cür təsnif etmək mümkündür:

1) Ağ inkrustasiyalı saxsı məmulatları.

Qeyd edilən dulusçuluq nümunələrinin əsas fərqləndirici xüsusiyyətləri qabların xarici səthində cızma naxışların xüsusi ustalıqla, peşəkarcasına vurul-

masıdır. Eyni zamanda, ağ inkrustasiya anlayışı bu naxışların (yaxud ornamentlərin) boyaq maddəsi ilə minalanması ilə bağlıdır. Daha doğrusu, ağ inkrustasiyalı keramik məmulatların səciyyəvi cəhəti bu qabların üzərində təsvir edilmiş müxtəlif xarakterli cızma naxışların xüsusi ağ rəngli boyaq maddəsi ilə doldurulmasıdır (minalanmasıdır) [4, 133].

Formaları baxımından rəngarəng, çoxçeşidli olması ilə fərqlənən bu dulusçuluq nümunələri həm də ornamentlərinin, daha doğrusu, cızma naxışlarının da müxtəlifliyi ilə seçilir. Tunc dövrünün sonlarına aid bir sıra saxsı məmulatlarında təsadüf olunmuş ağ boyaq maddəsi ilə minalanma və dulusçuluq qablarının üzərində zoomorf səciyyəli (heyvan və quş təsvirləri formasında olan) naxışların təsvir edilməsi ənənəsi ilk dəmir dövründə daha təkmil və əhəmiyyətli dərəcədə fərqli cəhətlər əxz etməklə davam etdirilmişdir. Təsadüfi deyildir ki, Gəncəbasar ərazisi, xüsusilə də qədim Gəncə ərazisi və Gəncəçay hövzəsi ilk dəmir dövrü mərhələsində cızma naxışları ağ boyaq maddəsi ilə minalanmış (yaxud ağ inkrustasiyalı) keramikanın əsas inkişaf ocağı olmuşdur. Qeyd olunan dulusçuluq nümunələrinin ornamentləri, əsasən antropomorf (insan təsvirləri formasında olan), zoomorf (heyvan və quş təsvirləri formasına malik), nəbati (bitki təsvirləri) və həndəsi, əşyavi olması ilə səciyyələnir [2, 28-29].

Gəncəbasarın ağ inkrustasiyalı keramika nümunələrinin tarixi-etnoqrafik mənbə kimi ən mühüm xüsusiyyətlərindən biri ilk dəmir dövrünə aid dulusçuluq ənənələrinin formalaşması, yaxud mənşəyi məsələsində yerli şəraitin və sənətkarlıq cəhətlərinin həlledici faktor qismində çıxış etdiyini göstərməsidir. Belə ki, qonşu bölgələrlə müqayisədə Gəncə və onun ətraf ərazilərinin tarixi-arxeoloji abidələrindən aşkar olunmuş bu tip saxsı məmulatları digər regionlarda tapılmış nümunələrdən daha keyfiyyətli, sənətkarlıq baxımından nəfis və mürəkkəb, çoxçeşidli ornamentlərə malik olması ilə seçilir [10, 309].

Qarabağ, Naxçıvan kimi bölgələrdən aşkar edilmiş oxşar dulusçuluq məmulatları isə, öz növbəsində, bu ərazilərin də Gəncəbasar bölgəsi kimi əcdadlarımızın əzəli məskəni olduğunu, burada ictimai, sosial və mədəni inkişafın əsrlərlə davam etdiyini  sübuta yetirir.

2) Fiqurlu keramika nümunələri.

Gəncəbasarın ilk dəmir dövrünə aid əsas fiqurlu dulusçuluq nümunələri zoomorf formalı gil qablarla təmsil olunur. Əksər bu tip saxsı məmulatları heyvan və quş formasına malik olması ilə fərqlənir. Diqqəti cəlb edən xüsusiyyət bundan ibarətdir ki, haqqında bəhs olunan fiqurlu keramika nümunələri üçün ümumi cəhət zoomorf formanın mövcudluğu olsa da, bu keyfiyyət heç də bütün qablarda eyni cür təzahür etmir. Belə ki, bir qrup zoomorf qablarda heyvan və quş təsviri yalnız saxsı məmulatının müəyyən bir hissəsini əhatə edir. Daha doğrusu, gil qabın gövdəsinin əsas və yaxud müəyyən bir hissəsi zoomorf təsvirlə işlənilmişdir [11, 57].

Digər qisim fiqurlu keramika məmulatlarında zoomorf səciyyəli elementlər bütöv qabı əsasən əhatə edir. Bununla yanaşı, qeyd olunan xüsusiyyət

heç də bu tip dulusçuluq nümunələrində müxtəlif xarakterli, o cümlədən zoomorf ornamentlərin təsvir edilməsinə mane olmamışdır.

Eyni zamanda, fiqurlu keramikanın, xüsusilə də zoomorf formalı dulusçuluq məmulatlarının müəyyən bir hissəsinin, yalnız ayrı-ayrı elementlərində, o cümlədən qabların boğaz (boğazcıq), qulp hissələrində heyvan və quş forması təsvir edilmişdir [12, 145].

Qeyd etmək lazımdır ki, bu tip təsvirlər yalnız ornament və yaxud əlavə səciyyəli element kimi qiymətləndirilməməlidir. Əksinə, bəhs olunan zoomorf xarakterli elementlər fiqurlu keramika nümunələrinin heyvan və quş formasında işlənilmiş zəruri hissələridir və bu qabların təyinatına müvafiq olaraq istifadə edilməsinə şərait yaratmışdır.

3) «Kernos» tipli saxsı qabları.

Bu tip dulusçuluq məmulatları Gəncəbasarın ilk dəmir dövrü, o cümlədən son tunc dövrü mərhələsi üçün səciyyəvi hesab edilən və bir sıra özünəməxsus cəhətləri ilə fərqlənən gil qablar kimi səciyyələndirilir [13, 92].

Bundan əlavə, «Kernos» tipli saxsı məmulatlarına Gəncəbasar ərazisi ilə yanaşı, Yaxın Şərqin müasir İran İslam Respublikası, Türkiyə (Anadolu, Aralıq dənizi sahili) kimi coğrafi ərazilərində təsadüf olunması əcdadlarımızla qonşu etnosların qədim mədəni, iqtisadi münasibətlərinin elmi cəhətdən tədqiq olunmasında əhəmiyyətə malikdir. III Gilan-təpə, V Sialk-təpə, hətta Hindistan ərazisindəki Harappa və Mohenco-Daro tarixi-arxeoloji abidələrindən «Kernos» tipli dulusçuluq nümunələrinin aşkar edilməsi buna əyani sübutdur [4, 134; 14, 130].

Bu növ keramik qabların səciyyəvi xüsusiyyətləri sırasında gövdənin yuxarı hissəsində əlavə bir və yaxud bir neçə borucuğun yaxud ağızcığın mövcud olması göstərilə bilər. Lakin nəzərə almaq lazımdır ki, bu cür cəhətləri ilə seçilən digər dulusçuluq məmulatları da vardır, amma bu tip keramik nümunələrdən fərqli olaraq, «Kernos» tipli saxsı qabların yalnız bir, ümumi oturacağı mövcuddur.

Gəncə və onun ətraf ərazilərindən, o cümlədən Mingəçevir, Göygöl, Şəmkir rayonlarının müxtəlif ilk dəmir dövrünə aid abidələrindən aşkar olunmuş bu tip dulusçuluq nümunələri istər yaşayış yerləri, istərsə də qəbir abidələrində (kurqanlarda) təsadüf olunması sayəsində mühüm tarixi mənbə kimi çıxış edir. Bu məqamda yerli sənətkarların peşəkarlığının yüksəlməsi, həmçinin əhalinin dini təsəvvürlərinin inkişafının «Kernos» tipli dulusçuluq məmulatlarının istehsalı prosesində yerli mədəni ənənələrin təsirinin güclənməsində əhəmiyyətli rol oynadığını qeyd etmək zəruridir [4, 132].

Ümumiyyətlə, bu tip saxsı nümunələrinin əsas səciyyəvi xüsusiyyətləri bunlardır:

- qabların altlığı enli və hündürdür;
- gövdə hissəsi dairəvi, enli formaya malikdir;
- qablar, əsasən kasa, cam formalıdır;

- əksər qism saxsı nümunələri bir neçə kiçik qulpa malikdir [15, 162].

Beləliklə, Gəncəbasarın ilk dəmir dövrünə aid saxsı nümunələrinin təfərrüatlı elmi tədqiqi burada dulusçuluq sənətinin zəngin inkişaf yolu keçdiyini təsbit edir.

## ƏDƏBİYYAT


1. Burton-Brown T.Excavations in Azerbaijan, 1948. London: Cambridge Press, 1951, 240 p.
2. Həsənov E.L. Dulusçuluq sənətinin inkişafına dair //Gəncə tarixinin aktual problemləri. II elmi-praktik konfransın materialları. Gəncə: Elm, 2010, 25-30 s.
3. Гасанов Э.Л. Историко-этнографическая характеристика художественной керамики древней Гянджи //Международный научный журнал «Интеллект» ISSN 1512-0333, Тбилиси: Интелекти, 2010, №3 (38), 115-120 с.
4. Гасанов Э.Л. Образцы гончарного ремесла древней Гянджи раннего железного века как этнографический источник в исследовании общих для Азербайджана и Грузии керамических изделий //Кутаисский Научный Центр АН Грузии. Журнал «Новация» ISSN 1512-3715, Кутаиси: Наука, 2010, №6, с.131-135.
5. Ghirshman R.H. Perse, Pro-Iranians, Medes, Achemenides. London: Allerton Press, 1964, 325 p.
6. Ghirshman R.H. Fouilles de Sialk Pres de Kashan. T.2, M.: Наука, 1959, 560 p.
7. Sadıqov H.H., Həsənov E.L. Gəncə dulusçuluğu erkən dəmir dövründə: Genezis probleminə etnoqrafik baxış //Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Regional Elmi Mərkəz. «Xəbərlər» məcmuəsi. Gəncə: Elm, 2010, №40, 184-187 s.
8. http://www.ganja.net
9. Həsənov E.L. Qədim Gəncə dulusçuluq sənətinin ilkin formalaşma mərhələsi və onun tarixi-etnoqrafik səciyyəsinə dair //AMEA Gəncə Regional Elmi Mərkəz. «Xəbərlər» məcmuəsi. Gəncə: Elm, 2009, №37, s.124-127.
10. Dyson R.H. Early Cultures of Solduz, Azerbaijan //A Survey of Persian Art. London: Cambridge, 1967, vol.14, pp.301-440.
11. Sams G.K. Phrigian painted Animals: Anatolian orientalizing Art. Oxford: Anatolian Studies, 1974, vol.24, pp. 40-62.
12. Курочкин Г.Н. К интерпретации некоторых изображений раннего железного века с территории Северного Ирана. // Советская археология, М.: Наука, 1974, №2, с.141-148.
13. Sulimirski T.Scythian Antiquities in Western Asia. Ascona: Artibus Asiae, 1954, vol. 17, №3-4, pp. 89-97.
14. Herzfeld E.Iran in the Ancient East. London: Clarendon Press, 1941, 485 p.
15. Young C.H. A Comparative Ceramic Chronology for Western Iran. 1500-500 B.C. London: Iran, 1965, vol 3, pp.138-165.


## О РАЗВИТИИ ГОНЧАРНОГО РЕМЕСЛА В ГЯНДЖАБАСАРЕ В ПЕРИОД РАННЕГО ЖЕЛЕЗА


**Э.Л.ГАСАНОВ**


### РЕЗЮМЕ


В научной работе на основе неоспоримых аргументов и фактов была доказана верность нового научного подхода к истории развития керамики на территории Гянджабасара в период раннего железного века. Впервые был исследован вопрос о значении гончарных изделий как историко-этнографического источника в изучении проблемы происхождения (генезиса) ремесленных традиций данного периода.



**Ключевые слова:** гончарное ремесло, ранний железный век, историко-этнографическое исследование, проблема происхождения (генезиса), древние керамические изделия Гянджабасара

# THE DEVELOPMENT OF CERAMICS TRADE IN GANJABASAR DURING THE EARLY IRON AGE

**E.L.HASANOV**

**SUMMARY**

The paper, on the basis of indisputable arguments and facts, analyzes and testifies a new scientific approach to the history of development of ceramics in the territory of Ganjabasar during the Early Iron age. The author initiates to investigate the importance of pottery wares as historic-ethnographical sources in the research of the problem of provenance (genesis) of the handicraft traditions of this period.

**Key words:** ceramics trade, Early Iron Age, historical-ethnographical investigation, problem of provenance (genesis), ancient pottery wares of Ganjabasar